## Əsrin Lideri - 100

# O, əsl Azərbaycan xanımı idi



Zərifə və Heydər Əliyevlər arasındakı kövrək münasibətlər barədə poemalar yazılıb, filmlər çəkilib. Ancaq hər halda hələ çox şey deyilməyib. Həyat yoldaşının Heydər Əliyevə bəslədiyi məhəbbəti necə təsvir etmək olar? Cəsarətlə deyə bilərəm ki, İzzət xanım istisna olmaqla, həyatda heç kim Heydər Əliyevi Zərifə qədər sevməyib. O, Heydərə ana övladının qayğısını çəkdiyi kimi diqqət göstərirdi, onun şəxsiyyətinə sözün həqiqi mənasında pərəstiş eləyirdi və hər an istəkli həyat yoldaşının yolunda canından keçməyə hazır idi...

...Lidiya Rəsulova Zərifə xanımın danışdığı qəribə bir əhvalatı xatırladı. Başda MK-nın birinci katibi olmaqla Büronun bütün üzvləri Musiqili Komediya Teatrına, Rauf Hacıyevin "Yol ayrıcında" operettasının premyerasına gediblər. Tamaşanın fasiləsində Lidiya xanım həmişə ərini müşayiət edən Zərifə xanımla söhbət edir. Zərifə xanım ona danışır ki, Moskvaya uşaqlarına dəyməyə gedibmiş, qayıdanda Sviqun ona öz təyyarəsində uçmağı təklif edir. Elə təzəcə havaya qalxmışdılar ki, texniki nasazlıq aşkara çıxır: şassilər bağlanmayıb. Heyət komandiri elan edir ki, problemlər var. Yanacaq qurtarmamış onlar yerə enə də bilməzlər, çünki təyyarə partlaya bilər. Əvvəlcə salonda oturanlara bir şey bildirmədilər. Ancaq illüminatordan baxanlar gördülər ki, təyyarə bir yerdə fırlanır. Zərifə xanım deyir ki:

- Gördük ki, uçuş xəttinə yanğınsöndürən, "təcili yardım" maşınları yığışıb. Başa düşdüm ki, hər an dəhşətli bir hadisə baş verə bilər. O anda məni yalnız bir şey düşündürürdü: bunu Heydər Əliyevə necə xəbər verəcəklər və bu xəbərdən sonra onun halı necə olacaq?!

"Mən bu hisslər qarşısında heyrətə gəldim, - deyə Lidiya Rəsulova xatırlayır. - Belə çətin vəziyyətdə qadın özünü yox, ərinin bu itkiyə necə davam gətirəcəyini düşünür".

Heydər Əliyevin mühafizə rəisi Aleksandr İvanov təyyarə xarab olan zaman Zərifə xanımın yanındaymış. O indiyədək bu qadının heyrətamiz insani keyfiyyətlərini məftunluqla xatırlayır.

- Zərifə Əliyeva yadınızda necə qalıb?

- Hazırda kiçik oğlumun 27 yaşı var. Mən Heydər Əliyevlə işləməyə başlayanda o hələ doğulmamışdı. Yadımdadır, növbəmi başa çatdıranda Zərifə xanım məni yanına çağırtdırıb və ya artırmadan səsləyib deyirdi: "Bu paketi götür". Mən deyirdim ki, "lazım deyil, ayıbdır". O isə cavabında: "Bunu sənə vermirəm ki, İrkaya apararsan. Hamilə qadınlar dəniz məhsulları yeməlidir ki, uşağın gözləri mavi olsun".

Və ya zəng vurub deyirdi: "Saşa, Volodya (onun sürücüsü) sizə bir qutu ərik apardı". Burada, şəhər iqamətgahında çoxlu ərik ağacları vardı. O, bağbandan xahiş edirdi ki, onları yığsın, mənə, sürücülərə, rəhmətlik Tamerlan Əzizoviçə göndərirdi. O, hamının qayğısına qalırdı. Onun bütün sözü-söhbəti uşaqları, nəvələri, Heydər Əliyeviç barədə olurdu.

Təyyarə əhvalatı Heydər Əliyeviç hələ MK-nın birinci katibi olanda baş vermişdi. Bir gün səhər tezdən üzgüçülük hovuzundan kottecimizə gedirdik. Heydər Əliyeviç mənə dedi: "Saşa, bu gün Zərifə Əzizovanı gətirmək üçün Moskvaya uçursan". Belə hallarda DTK vasitəsilə müvafiq operativ-texniki tədbirlər-təyarələri, pilotları və s. attestasiyadan keçirmək lazım idi.

Moskvaya zəng çaldım, mənim üçün bilet götürdülər, nahardan sonra uçub getdim. Moskavada məni Yura Kamayev qarşıladı. Mehmanxanada yerləşdik. Geriyə qayıtmaq üçün bileti bizim üçün artıq Yura Azərbaycanın Moskvadakı nümayəndəliyi vasitəsilə sifariş etmişdi. Axşam Zərifə Əzizova məni tapıb dedi ki, papa zəng vurmuşdu (biz Heydər Əliyeviçi öz aramızda "papa" adlandırırdıq), dedi ki, Sviqun Bakıya uçur, ona görə də biz onunla xüsusi reyslə uçacağıq. Sviqun Bakıya DTK xətti üzrə yığıncaqda iştirak etmək üçün gedirdi və general-polkovnik kimi onun xüsusi təyyarə ilə uçmağa haqqı çatırdı. Mənim əlimdə isə adi 861-ci reysə iki bilet vardı və təyyarə bizim operativ xətt üzrə attestasiyadan keçmiş hazırlıqlı heyətə malik idi.

Heydər Əliyevin öz təyyarəsi yox idi. Sovetlər dönəmində Siyasi Büro üzvlərinin heç birinin şəxi təyyarəsi yox idi. O vaxt Mülki Aviasiya Nazirliyi yanında Siyasi Büro üzvlərinə, üzvlüyə namizədlərə, xarici dövlətlərin başçılarına xidmət edən xüsusi 235-ci dəstə mövcud idi (hazırkı "Rossiya" aviakompaniyası).

Sözün qısası, axşam papa zəng vurdu ki, biz Sviqunla uçmalıyıq. Vnukovo-1 hava limanından uçacaqdıq. Zərifə Əzizovna Sviqunun yanında oturdu, mən bir qədər aralıda, Sviqunun mühafizəçiləri-iki zabitlə oturdum. Təyyarədə cəmi beş nəfər idik. Havaya qalxdıq, stüardessa konfet gətirib payladı. Birdən şassilər qəribə səslər çıxarmağa başladı. Mən tez-tez təyyarə ilə səfərə çıxırdım, bu səs nə isə mənim xoşuma gəlmədi, ancaq nigaranlığımı büruzə vermədim, susdum. Sviqunun mühafizəçilərini tanıyırdım, amma onlarla yaxın münasibətdə olmamışdım. Gözümün ucu ilə baxıb gördüm ki, artıq "Tyoplıy stan"ın üzərindən uçuruq. Ancaq heç cür yüksəkliyə qalxa bilmirik. Təyyarə üçüncü dəfə dövrə vuranda Sviqun dedi: "Öyrənin, görün təyyarəyə nə olub". Onun mühafizəçisi vəziyyəti öyrənməyə getdi, bənizi ağarmış halda qayıdıb dedi: "Uşaqlar, nə isə baş verib, stüardessa oturub ağlayır, heyət isə qapını bağlayıb, açmır". Zərifə Əzizovna bunu eşidəndə dərhal gəlib yanımda oturdu. Hiss olunurdu ki, həyəcanlıdır. "Nə olub?"- soruşdu. "Heç nə, hər şey qaydasındadır, indi qalxacağıq"- dedim. Hara qalxacağıq? Təyyarə yenidən aşağı enməyə başladı. Təyyarə beş dəfə qalxıb endi. Sonra öyrəndik ki, sən demə bununla yanacaq sərf edirmiş. İkinci dövrədə uçuş xəttinə artıq yanğınsöndürən, "təcili yardım" maşını gəldi. Zərifə Əzizova əlimdən tutdu və təsəvvür edin ki, özü barədə bir kəlmə də demədi: "Heydər Əliyeviç və İlham eşitsələr necə olacaq? Bu xəbəri necə qarşılayacaqlar?".

Zərifə xanım həmişə hamıdan az özü haqqında düşünürdü.

Əliyevlər cütlüyünün çoxdankı ailə dostları arasında görkəmli rəssam Tahir Salahov da vardı. Mən ondan soruşdum ki, Zərifə ilə Heydərin münasibətləri haqqında nə deyə bilər? Adətən belə olur: biri sevir, o birisi isə sevilməyə "icazə verir".

"Yox, onların arasında belə şey yox idi, - deyə Tahir müəllim bir qədər fikirləşəndən sonra cavab verdi. - Onlar bir-birini qəribə şəkildə tamamlayırdılar. Bizi bağlayan xatirələr çoxdur. Heydər Əliyeviçin Moskvada təhsil aldığı və ya stajirovka keçdiyi vaxtlardakı görüşlərimizi xatırlayıram. Zərifə Əzizova mənə Bakıdan zəng çalıb deyirdi:

- Tahir, ona diqqət göstər, tək qoyma. Çünki orada qəribçilikdədir.

O çox qayğıkeş qadın idi".

"Heydər Əliyeviç onu "Zarişa" çağırırdı, - deyə Müslüm Maqomayev mənə söylədi. - Zərifə xanım isə onun dalınca addım-addım gəzirdi. Tamara ilə mənim yanımda onu adı və atasının adı ilə çağırırdı: "Heydər Əliyeviç, sizin üçün bu kifayətdir... Bu sizə olmaz...". Belə bir hadisə olmuşdu. Mən Heydər Əliyeviçlə bir məsələ ilə bağlı görüşmək üçün Bakıya gəlmişdim. O qədər də əhəmiyyətli məsələ deyildi, ancaq bir nəfərə söz vermişdim ki, Heydər Əliyevlə danışaram. Gəlib Rafayel Allahverdiyevə zəng vurdum və dedim: "Heydər Əliyeviçə çatdırın ki, mən Bakıdayam". - "Oldu". Bir gün gözlədim, iki gün, üç gün-heç bir xəbər yoxdur.

Axırda Zərifə Əzizovnaya zəng vurdum ki, "Moskvada təcili işlərim var, getməliyəm, ancaq Heydər Əliyeviçlə cəmisi beş dəqiqəlik görüşüb danışmalıyam. Bununla bağlı mənə kömək edə bilməzsinizmi?"- "O hələ səni qəbul etməyib? Dayan bir". Görünür dəstəyin o biri başında gözlədiyimi və hər şeyi eşitdiyimi unudub digər telefonla Heydər Əliyeviçi məzəmmət etməyə başladı: "Heydər, oğlan gəlib, üç gündür burada oturub, nədir, ona beş dəqiqə vaxt ayıra bilmirsən?". Bu sözlər elə bir ahənglə deyilmişdi ki, mən artıq Zərifə xanımın ona necə ərki çatdığını anladım. Onun tez-tez işlətdiyi "Heydər Əliyeviç" kimi ifadələri isə kənar adamların yanında ehtiramı gözləmək üçün imiş.

Zərifə xanım çox baməzə, zarafatcıl olmaqla, bütün məclislərin gözü idi. Müdrik və həyatsevər, şən, musiqi duyumlu idi, royalda məharətlə çalırdı. Əgər həkim, siyasətçi xanımı olmasaydı, musiqiçi olacaqdı. Elə Heydər Əliyev də gözəl rəssam, aktyor ola bilərdi. O, əsl aktyorlara məxsus qayda-qanunlarla çıxışlar edərdi".

Svetlana Qasımova Azərbaycan SSR-in 60 illiyi təntənələrinə Bakıya gəlmiş müttəfiq respublikaların Kommunist Partiyalarının birinici katiblərinin xanımlarının Zərifə xanım haqqında necə hörmətlə və heyranlıqla danışdıqlarını yada salır:

- Biz respublikalardan gələn nümayəndə heyətlərini qarşılayanda mən ilk dəfə Zərifə xanımla yaxından ünsiyyətdə oldum. İstər-istəməz biz Zərifə xanımla başqa birinci katiblərin xanımlarının nədən və necə danışdıqlarını müqayisə edirdik. Zərifə Əzizova nadir şəxsiyyətlərdən idi - yüksək mədəniyyətə, dərin biliyə, geniş dünyagörüşünə malik, eyni zamanda da çox sadə və səmimi qadın idi. O, ətrafında çox rahat abhava, qonaqların hər birinə Azərbaycan, Azərbaycan qadını haqqında təsəvvür oyanması üçün şərait yaradırdı. O, əsl Azərbaycan xanımı idi".

***Elmira Axundova***
***"Heydər Əliyev: Şəxsiyyət və zaman"***
***kitabından***

**Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda hesab edirəm ki, ailə vəziyyətimin çox böyük rolu olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib.**

**Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhvali-ruhiyyədədirlər. Onlar bu əhvali-ruhiyyə ilə tərbiyələniblər, formalaşıblar. Ona görə də bu gün bizim üçün müqəddəs gündür...**
**Bu gün xoşbəxt gündür. Çünki bu gün Zərifə xanım kimi böyük bir insan Yer üzünə gəlib, mənim həyatımı xoşbəxt edib, mənə gözəl övladlar bəxş edib.**

**Heydər Əliyev**
**28 aprel.1995-ci il**